**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

**Q Ə R A R**

**№ 5**

**Bakı şəhəri** **27 aprel 2022-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Ramil Muradil oğlu Əskərovun Tərtər Rayon Statistika İdarəsinin baş məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il aprelin 01-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Əskərov Ramil Muradil oğlu Tərtər Rayon Statistika İdarəsinin baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2021-ci il 27 dekabr tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2022-ci il aprelin 01-də Dövlət Statistika Komitəsinin Sosial statistika şöbəsinin müdiri Elçin Hacı, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Əli Mahmudov və müstəqil ekspert Faiq Əhmədovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Əskərov Ramil Muradil oğluna müsahibə komissiyasının üzvlərindən Ə.Mahmudov və F.Əhmədov 13 bal, E.Hacı 14 bal vermiş və nəticədə iştirakçı 13,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 06.04.2022-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Əskərov Ramil Muradil oğlunun 06 aprel 2022-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Tərtər Rayon Statistika İdarəsinin baş məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il aprelin 01-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.
3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**